# Rusiyanın qeyri-dost addımları

## Bakı-Moskva münasibətlərinə ağır zərbə vurur

**Rusiyanın qonşuluğa yaraşmayan məkrli siyasəti, Azərbaycana qarşı kampaniyaları davam edir. Son bir neçə ayda ölkəmizə qarşı atılan bütün addımlar bu ölkənin qərəzli yanaşmasını bir daha ortaya qoyur.**

Hələ ötən ilin dekabrında 38 nəfərin həlak olması ilə nəticələnən Rusiyanın Qroznı vilayətində Azərbaycanın mülki təyyarəsinə raket hücumu ilə bağlı ölkəmiz qarşı tərəfdən məsuliyyətdən yayınmayaraq hadisə ilə əlaqədar üzərinə düşən öhdəlikləri yerinə yetirməsini tələb etsə də, Rusiya müxtəlif vasitələrlə bundan yayınmağa çalışıb. İlkin mərhələdə qəzanın əsl səbəbini ört-basdır etməyə çalışan Rusiya mediası daha sonra faktlar qarşısında heç bir çıxış yolu olmadığını gördü. Bundan sonra Vladimir Putin Prezident İlham Əliyevə zəng edərək hadisənin Rusiyanın hava məkanında baş verməsinə görə üzrxahlıq etdi. Bununla belə bugünə qədər də Rusiya tərəfindən hadisə ilə bağlı rəsmi etiraf yoxdur, zərərçəkənlərə heç bir kompensasiya ödənilməyib, faciəni törədənlər cəzalandırılmayıb.

Təbii ki, Kremlin Azərbaycana qarşı fəaliyyəti bununla bitmir. İmperiya təfəkküründən qurtula bilməyən Rusiya Azərbaycanın regionda qalib ölkə kimi söz sahibinə çevrilməsini, Ermənistanla münasibətlərin ikitərəfli formatda irəlilədilməsini, Əbu-Dabidə ikitərəfli görüşü, daha sonra isə ABŞ Prezidentinin təşəbbüsü ilə iki ölkə arasında yekun sülh mətninin razılaşdırılmasını, ümumilikdə bütün bu proseslərdən kənarda qalmasını həzm edə bilməyərək düşmənçilik siyasəti aparır.

İki ay öncə Yekaterinburqda azərbaycanlılara qarşı törədilən vəhşiliklər də Rusiyanın diskriminasiya, qeyri-millətlərə qarşı dözümsüzlüyünü bir daha göstərdi. Rusiya Federal Təhlükəsizlik Xidmətinin azərbaycanlılar yaşayan müxtəlif ünvanlarda keçirdikləri əməliyyatlar nəticəsində iki qardaş qətlə yetirildi, 9 nəfər isə saxlanıldı. Daha sonra Azərbaycan diasporunun rəhbərinin və oğlunun axtarışa verilməsi və saxlanılması da azərbaycanlılara qarşı təqib siyasətinin davam etdiyini təsdiqləyir. Əslində, qardaş Ukrayna xalqına qarşı törədilən vəhşilikləri görəndə digər ölkələrə və xalqlara qarşı edilən barbarlıqlar o qədər də təəccüblü görünmür. Ümumiyyətlə, Rusiyanın miqrantlara qarşı qanunları sərtləşdirməsi, qeyri-millətlərin məcburi formada müharibəyə cəlb olunması bu ölkənin milli-etniklərə qarşı ayrı-seçkilik etdiyini bariz şəkildə nümayiş etdirir.

Ölkəmiz əleyhinə qərəzli siyasətin tərkib hissələrindən biri də Rusiya mediasında Azərbaycana qarşı davamlı xarakter alan dezinformasiya kampaniyasının aparılmasıdır. Bir müddət əvvəl TASS Dövlət İnformasiya Agentliyində Xankəndinin "Stepanakert" adlandırılması, xəbərdarlıqdan sonra yenidən Dağlıq Qarabağ ifadəsinin işlədilməsi rus mediasının qərəzini bir daha göstərdi. Bu, ölkəmizin ərazi bütövlüyünə, suverenliyinə hörmətsiz yanaşmanın daha bir nümunəsi idi. Rusiyada müxtəlif dairələrin, eyni zamanda bəzi rəsmilərin ölkəmiz əleyhinə qərəzli, ədalətsiz, əsası olmayan fikirlərinə tez-tez rast gəlinir. Azərbaycanı abidələrin düşməni kimi göstərmək isə Rusiyanın ikiüzlü siyasətindən başqa bir şey deyil. Dünyaya məlumdur ki, Azərbaycan tolerant, multikultural ölkə olaraq daim milli etnik qrupların birgə, mehriban şəraitdə yaşamasına dəstək verməklə, müxtəlif dinlərə, xalqlara məxsus dini, mədəni abidələrin qorunmasına həssaslıqla yanaşır. Mədəniyyət nümunələrinin restavrasiyası daim dövlətin xüsusilə diqqət mərkəzində olub.

Xankəndidə erməniəsilli İvan Ayvazovskinin (Hovanes Ayvasyan) büstünün sökülməsi ilə bağlı Rusiya mətbuatında aparılan təbliğat da qəbuledilməzdir. Öz gözündə tiri görməyən Rusiya ilk olaraq anlamalı idi: birincisi, Rusiya sülhməramlıları üçtərəfli Bəyanata uyğun olaraq müvəqqəti olaraq Azərbaycan ərazilərində idilər və onların vəzifəsi hansısa abidənin quraşdırılması deyildi. İkincisi, belə bir büstün qurulması ilə bağlı Azərbaycan tərəfindən icazə alınmamışdı. Üçüncüsü, icazəsiz belə bir addımın atılması beynəlxalq hüququn ümumtanınmış normalarında əks olunan prinsiplərə zidd olmaqla yanaşı, ölkəmizin suverenliyinə münasibətdə hörmətsizlik idi. Əksinə, belə qanunsuz əmələ görə, Rusiya tərəfi üzr istəməli və sülhməramlılar gedərkən büstü söküb özləri ilə aparmalı idilər.

Neçə ildir davam edən Rusiya-Ukrayna müharibəsi fonunda Azərbaycanın Ukraynaya humanitar yardımlarını da gözü götürməyən Kreml ölkəmizin Ukraynadakı fəaliyyətinə də hər vəchlə zərbə vurmağa çalışır. Rusiya tərəfindən atılan raketlərin Azərbaycanın Ukraynadakı səfirliyinin, daha sonra SOCAR-ın ofisinin yanına düşməsi, Azərbaycan neftinin də ixrac edildiyi Ukraynanın Odessa istiqamətində qaz kəməri sisteminin, SOCAR-ın yanacaqdoldurma məntəqəsinin hədəfə alınması və zərbələrə məruz qalması Azərbaycana qarşı düşmənçiliyin əyani sübutlarıdır. Avqustun 18-nə keçən gecə də Rusiya Silahlı Qüvvələri Odessada SOCAR-ın yanacaqdoldurma məntəqəsini vurub. Bir neçə birbaşa zərbədən sonra ərazidə yanğın baş verib. Nəticədə 17 ədəd yanacaq çəni, nasosxana binası, operator və texniki otaqlar, eləcə də çəki məntəqələri zədələnib, ərazinin hasarı dağıdılıb. Hazırda dəymiş ziyanın miqdarı müəyyən edilir, ekspertiza təyin olunub və təcili bərpa işləri aparılır. Xatırladaq ki, bu, obyektə ikinci kütləvi hücumdur. Avqustun 8-də də həmin neft bazasına təxminən 10 PUA buraxılmış, nəticədə qismən dağıntılar baş vermişdi. "Şahed" PUA-ları vasitəsilə SOCAR-ın Odessada yerləşən neft bazasına hücum da Kremlin Azərbaycanın Ukraynadakı fəaliyyətinə dözümsüz olduğunu göstərir.

Ümumiyyətlə, strateji müttəfiq, qonşu ölkə tərəfindən Azərbaycana qarşı bütün bu fəaliyyətlər qeyri-dost addımlardır. Azərbaycan hər zaman region və həmsərhəd ölkələrlə qonşuluğa yaraşan, dostluğa söykənən, mehriban münasibətlərin tərəfdarıdır. Amma münasibətləri korlayan, ölkəmiz əleyhinə xoşagəlməz fəaliyyətin müəllifi Kreml olduğundan, onlar Azərbaycanın haqlı tələblərini nəzərə alaraq, lazımi addımlar atmalıdırlar. Rusiya imperiya təfəkküründən xilas olaraq Azərbaycanın Cənubi Qafqazın lider ölkəsi kimi müstəqil daxili və xarici siyasət yürütdüyünü unutmamalı, eyni zamanda bizə qarşı hədələyici addımlardan əl çəkməlidir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 19 avqust (№173).- S.4.